

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 oktyabr 2021-ci il №77 (2585) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev “France-24” televiziya kanalına müsahibə verib

*Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "France-24" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edib.*



**- Salam, "France-24" kanalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə eksklüziv müsahibəyə xoş gəlmisiniz. O, bizə Bakıdan qoşulur. Cənab Prezident, "France-24" kanalında bizim qonağımız olduğunuz üçün çox sağ olun.**

- Fransız auditoriyası ilə danışmaq üçün mənə bu fürsəti verdiyinizə görə təşəkkür edirəm.

**- Ölkənizin 44 gün ərzində qalib gəldiyi Azərbaycan və Ermənistan arasında olan müharibənin başlanmasından düz bir il ötür. Keçən həftə BMT-də müharibə bitəndən bəri ilk dəfə hər iki ölkənin - Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri görüşdü. Bu, hər iki tərəf arasında dialoqun yenidən başlaması və sülhə ümidin olacağı deməkdirmi?**

- Ümid etmək istərdim ki, bu, belədir. Çünki Azərbaycan artıq neçə dəfə açıq şəkildə Ermənistanla dialoqa başlamağa hazır olduğunu bildirib. Söhbət təkcə dialoqun başlanılmasından getmir, eyni zamanda, Azərbaycan və Ermənistan arasında gələcək sülh razılaşmasının üzərində aparılacaq işdən də gedir. Müharibə bitib, münaqişə öz həllini tapıb. Biz regionu daha da proqnozlaşdırıla bilən, sabit və təhlükəsiz regiona çevirmək üçün yeni fəaliyyətə başlamalıyıq. Hər iki ölkənin xarici işlər nazirlərinin görüşü bu səylərin yaxşı göstəricisidir. Ümid edirəm ki, bu, təkcə bir görüş yox, yeni bir prosesin başlanğıcı, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinin və Cənubi Qafqaz regionunda geniş əməkdaşlığa yeni bir miqyas verəcək proses olacaq.

**- Düzdür, dialoqa yenidən başlamağa cəhd etmək və sülhə doğru irəliləmək üçün Ermənistan rəhbərliyi - Ermənistanın baş naziri ilə əlaqə yaratmısınızmı?**

- Keçən ilin noyabr ayında müharibə bitəndən bəri bizim bir-birimizi görmək üçün yalnız bir imkanımız olub. Bu, yanvar ayında Rusiya Prezidenti Vladimir Putin tərəfindən Moskvada təşkil olunan üçtərəfli görüş zamanı olub. Görüşün məqsədi müharibədən sonra hadisələrin gedişatını planlaşdırmaq idi. Bizim bir-birimizi görmək üçün başqa imkanımız olmayıb. Yəqin ki, bu pandemiya ilə və ya başqa səbəblərlə əlaqədar olub. Lakin Azərbaycan heç vaxt, hətta müharibə zamanı, hətta işğal zamanı belə istənilən yüksək səviyyəli təmaslara etirazını bildirməyib. Əksinə, hesab edirik ki, bu təmaslar hər iki tərəfdə ola bilən sualları cavablandıra bilər və regionun inkişafı üçün yeni başlanğıc nöqtəsi ola bilər. Bizim mövqeyimiz çox aydındır. Biz münaqişənin həll olunduğunu hesab edirik, keçmişə qayıdış olmamalıdır, Ermənistanda revanşizm əlamətləri olmamalıdır. Biz gələcək haqqında, sülh haqqında və regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında danışmalıyıq.

**- Siz bunları söyləmək üçün baş nazir Paşinyana zəng etməyə hazırsınızmı?**

- Ola bilsin ki, sizin dediyiniz kimi yox. Adətən iki ölkə rəhbəri arasında təmaslar ATƏT-in Minsk qrupu çərçivəsində təşkil olunurdu. Onlar gündəliyi təklif edirdi, onlar görüşləri təşkil edirdi. Mənim prezidentlik təcrübəmdə heç vaxt Ermənistanın hər hansı bir rəhbəri ilə telefon danışığım olmayıb. Yəqin ki, bu yanaşma bunu etmək üçün doğru yol deyil. Lakin Minsk qrupunun həmsədrləri belə bir görüş təklifi ilə çıxış etsələr, əlbəttə, biz buna qarşı çıxmarıq.

**- Müharibənin ildönümü ilə əlaqədar müraciətinizdə Siz dediniz ki, - mən Sizdən sitat gətirirəm: "Əgər biz erməni faşizminin bir daha baş qaldırdığını görsək, yeni təhlükə görsək, heç bir tərəddüd etmədən erməni faşizmini yenidən əzəcəyik". Bu, sülh mesajı kimi səslənmir, elə deyilmi?**

- Bilirsiniz, bu, Ermənistandakı vəziyyəti əks etdirən bir fikirdir. Regionda sülhün bərqərar olunması ilə bağlı bizim mövqeyimizə gəldikdə, mən bir neçə dəfə açıq bəyanatlar vermişəm və yəqin siz internetə baxsanız onları tapa bilərsiniz. Bunlar xüsusilə sərhədlərin delimitasiyası və demarkasiyası üzərində işə başlamaqdan, Ermənistanla sülh sazişinin üzərində aparılacaq hərtərəfli danışıqlara hazırlaşmağa başlamaqdan ibarətdir. Bütün bunlar xoşməramlı jestlərdir. Yeri gəlmişkən, bunların heç birinə Ermənistan rəhbərliyi tərəfindən adekvat cavab verilməyib. Onlar ya bu təkliflərə məhəl qoymur, ya da ki, hazır olmadıqlarını deyirlər. Lakin mənim bəyanatım öz mənşəyini Ermənistanda müşahidə etdiyimiz tendensiyadan götürür. Bu siyasi istablişmentin bəzi dairələrində revanşizm tendensiyasıdır. Söhbət təkcə müxalifətdən getmir, iqtidardan da gedir. İntiqam almaq üçün ictimai bəyanatlardan və daha önəmlisi praktiki addımlardan, Ermənistanı militarizasiya etmək cəhdlərindən, bir məqsəd xatirinə edilən, müharibəyə yenidən başlamaq üçün yeni müasir avadanlıqlara çıxış əldə etmək cəhdlərindən gedir. Buna görə, mənim sözlərim kobud görünə bilər, lakin bu sözlərin əsas məqsədi Ermənistan rəhbərliyi və Ermənistan siyasi istablişmentini istənilən revanşizm əlamətlərinə, xalqımıza, dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhlükəyə cavab veriləcəyi haqqında xəbərdar etməkdən ibarət idi. Onlar bizim necə cavab verdiyimizi bilir və İkinci Qarabağ müharibəsi onların bizim qarşımızda heç bir şansının olmadığını göstərdi. Biz müharibəyə başlamaq istəmirik. Bu, bizə lazım deyil. Danışıqlar aparılan illər ərzində bu, bizə heç vaxt lazım olmayıb. Lakin indi hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün onlara xəbərdarlıq etmək vaxtıdır.

**- Burada bir məsələ var. Siz hesab edirsinizmi ki, bütün əraziləri geri qaytarmısınız? Əvvəllər Sizin bəyanatlarınız olub ki, Ermənistanın paytaxtı İrəvan qədim Azərbaycan torpağıdır. Bəli, Siz ötən il torpaqları geri qaytardınız, ancaq yenə də müəyyən suallar var. Ermənistanın özünün hesab etdiyi ərazilərlə bağlı hər hansı iddianız varmı?**

- Xeyr. Mənim bəyanatlarımda siz heç vaxt ərazi iddialarının əlamətlərini tapa bilməzsiniz. Mənim nəzərdə tutduğum tarixi həqiqətdir. Bu, bir tarixi faktdır ki, 1920-ci ildə sovet hakimiyyəti Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzuru qopararaq onun Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edib və bu qərar icra olunub. Bu hadisə 1920-ci ildə baş verib - 101 il bundan əvvəl. Tarixi torpaqlarımız haqqında danışarkən mən ərazi iddialarından bəhs etmirdim. Siz mənim heç bir çıxışımda buna rast gələ bilməzsiniz. Bununla yanaşı, hər bir ölkə kimi, biz də tariximizi bilməli, gənc nəsil qədim tariximizi bilməli, keçmişdə hansı ərazilərdə yaşadığımızdan xəbərdar olmalı və oralara necə qayıtmalı olduğunu bilməlidir. Əminəm ki, biz oralara qayıdacağıq. Mən artıq bunu demişdim ki, biz ora tanklarla deyil, piyada, avtomaşın və təyyarələrlə gedəcəyik. Vəziyyət normallaşandan sonra sülh müqaviləsinə nail olunacaqsa, niyə də biz geri qayıtmayaq? Bu, bizim legitim hüququmuzdur. Lakin sualınıza cavab verərkən tamaşaçılarınızın diqqətini bir məsələyə cəlb etmək istəyirəm ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var. Onlar hələ də iddia edirlər ki, "Dağlıq Qarabağ" bizə məxsus deyil. Onlar hələ də iddia edirlər ki, o, ya Ermənistana məxsusdur, ya da ki, "müstəqil" bir qurumdur. Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı vahid yoxdur. Belə bir qurum mövcud deyil. Beləliklə, Ermənistan, ilk növbədə, Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır. Biz isə adekvat münasibət göstərəcəyik.

(Ardı 2-ci səhifədə)

# Prezident İlham Əliyev “France-24” televiziya kanalına müsahibə verib

(Əvvəli 1-ci səhifədə)

**- Siz Qarabağa muxtariyyət verməyə hazırsınız? Minsk qrupunun üzvü ABŞ hələ də bəyan edir ki, Qarabağ məsələsi öz həllini tapmayıb. Siz bəyan edirsiniz ki, məsələ həllini tapıb və Qarabağ sizə məxsusdur. Lakin illər ərzində bu münaqişədə vasitəçilik edən bir sıra ölkələr iddia edir ki, məsələ həll edilməyib.**

- Mənim məsələnin həll edilmədiyini deyən həmin ölkələrə tövsiyəm odur ki, öz ərazilərində ermənilərı yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər. Niyə onlar hesab edirlər ki, hər hansı hüquqi, siyasi və tarixi əsaslar olmadan Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmalıdır? Mən deyəndə ki, münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir. Münaqişənin həll olunmaması ilə bağlı istənilən bəyanat yersiz olmaqla yanaşı, təhlükəlidir. Münaqişə həll edilməyib deyənlər göstərsinlər ki, o, necə həll olunmalıdır. "Dağlıq Qarabağ" dedikdə onlar nəyi nəzərdə tuturlar? Hansı sərhədlər çərçivəsində, hansı ərazidə, hansı formada? Həmin sualları cavablandırmaq üçün eyham belə yoxdur. Bu səbəbdən münaqişənin həll edilmədiyini söyləmək qeyri-səmərəli və təhlükəlidir. Bu, o deməkdir ki, onu həll etmək üçün düşmənçilik xarakterli digər hərəkətlərə ehtiyac var. Sizin muxtariyyətlə bağlı sualınıza gəldikdə, Minsk qrupunun həmsədrləri 28 il sürən mənasız danışıqlarda Azərbaycanın mövqeyindən çox yaxşı xəbərdardırlar. Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman "yox" deyirdilər - yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından, onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır.

**- Yəni, onlara muxtariyyət verilməyəcək. Bu, artıq müzakirə mövzusu deyil?**

- Tamamilə doğrudur, bu, artıq müzakirə mövzusu deyil.

**- Sualım Fransanın mövqeyi ilə bağlıdır. Fransa Sizin bəzi hərəkətlərinizi tənqid etdi və bu yaxınlarda Ermənistanla sərhəddən geri çəkilməyə çağırdı. Siz Fransanı dürüst vasitəçi hesab edirsiniz?**

- Bilirsiniz, müstəqilliyimizin bütün illərində biz ikitərəfli əlaqələrimizdə Fransa ilə bu mövzuda və bir çox digər məsələlərdə fəal çalışırdıq.



Fransa hər zaman Azərbaycanda dost ölkə hesab olunub. Biz bir çox iqtisadiyyat, ticarət və infrastruktur layihələrini həyata keçirmişik. Münasibətlər uğurla inkişaf edirdi və biz ümid edirik ki, Minsk qrupunun həmsədri və dürüst vasitəçi kimi Fransa bu vəzifəyə sadiq olacaq. Fransa Minsk qrupunun həmsədri olmasaydı, əlbəttə, onun istənilən ölkə ilə münasibət qurması öz işi olardı. Bizim Fransa ilə Ermənistanın tarixi əlaqələrindən, Fransada fəal erməni icmasının olmasından və onların qərar qəbul edən şəxslərə mümkün təsirindən xəbərimiz var. Ancaq, səmimi desəm, müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı. Fransa tərəf seçdi - Ermənistanın tərəfini. Özünün hərəkət və bəyanatlarından, Fransa Azərbaycanı açıq şəkildə ittiham etdi və qərəzli yanaşma nümayiş etdirdi. Təbii ki, bu məsələ narahatlıq doğurdu. Biz bu narahatlığı ifadə etdik, çünki bir daha qeyd etmək istəyirəm ki, istənilən ölkə ilə münasibət, dostları və qeyri-dostları ola bilər. Bu, onların öz işidir və burada biz heç nə deyə bilmərik. Lakin bir ölkə vasitəçi olması ilə bağlı ATƏT-in mandatına sahibdirsə, bu halda ölkə bitərəf olmalıdır. Müharibə zamanı və ondan dərhal sonra baş verənlərə qayıtmaq istəmirəm, biz Parisdən gələcək münasibətlərimizlə bağlı müsbət siqnallar aldıq və onlara müsbət cavab verdik. Müxtəlif səviyyələrdə, o cümlədən bu yaxınlarda iki ölkənin xarici işlər nazirləri arasında təmaslar olmuşdur. Azərbaycan hər zaman əməkdaşlığa açıq olub. Fransa dünyada aparıcı dövlətlərdən biridir və biz normal münasibətlərin olmasını istəyirik. Hesab edirəm ki, müharibənin başlanmasından bir ilin keçməsinə baxmayaraq, regionda nəyə nail olmaq istədiyimizə gəldikdə, çox realist yanaşmanın tətbiq edilməsi vaxtı yetişib. Əminəm ki, Fransa regionda sülhü, sabitliyi, təhlükəsizliyi arzulayır. Biz də bunu istəyirik. Ümid olunur ki, Ermənistan da istəyir. Biz bunun üzərində işləməliyik, buna diqqətlə yanaşmalıyıq və bir il əvvəl baş verənlərə qayıtmalı deyilik. Bizə gəldikdə, bu çox xoşagəlməz hadisələrdən sui-istifadə etməyəcəyik. Biz səhifəni çevirmək istəyirik.

**- Müsahibənin sonuna yaxınlaşırıq. Cənab Prezident, Sizə əlavə iki sualım da var. Hərbi əsirlərə gəldikdə, "Human Rights Watch" Azərbaycanı onları saxlamaqda, onlara işgəncə verilməsində ittiham edir. Buna cavabınız necə olardı? Xoşməramlı jest kimi, Ermənistanla onları mübadilə etməyə hazırsınızmı?**

- Biz, əlbəttə, bu ittihamları rədd edirik. Müharibə zamanı əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb. Ermənistan hökuməti bunu təsdiq edə bilər. Biz onları, hətta onlar bizim hərbi əsirləri qaytarmazdan əvvəl qaytardıq. QHT-lərin istinad etdiyi həmin şəxslərə gəldikdə, onlar müharibə başa çatdıqdan və noyabr Bəyannaməsi imzalandıqdan iki həftə sonra Ermənistanın hərbi komandirləri tərəfindən bizim mövqelərə doğru göndərilmişdilər və beləliklə, dörd azərbaycanlı hərbçini qətlə yetirərək cinayət törətmişlər. Onlar zərərsizləşdirildi və həbs olundular. Cinayətdə iştirakı olmayanların çoxu artıq qaytarılıb. Cinayət törədənlərə isə məhkəmələr tərəfindən cəza müəyyən edilib.

**- Ermənistan isə iddia edir ki, siz hələ də hərbi əsirləri saxlayırsınız və həqiqəti söyləmirsiniz.**

- Xeyr. Həmin saxlanılmış şəxslər sinifləşdirməyə, bütün beynəlxalq konvensiyalara uyğun olaraq, hərbi əsir hesab edilə bilməz. Hərbi əsirlər müharibə zamanı əsirliyə düşmüş insanlar hesab edilir. Noyabrın 10-da müharibə dayandırıldı. Dekabrın əvvəlində biz azad etdiyimiz ərazidə erməni təxribat dəstəsinin 62 üzvünü aşkar etdik. Onlar əraziyə noyabrın 26-da göndərilmişdi. Yəni, müharibə bitdikdən 16 gün sonra. Onlar hərbi əsir hesab edilə bilməz və biz onların çoxunu xoşməramlı jest kimi artıq qaytarmışıq. Lakin burada qalıb cəzasını çəkən şəxslər cinayət törədib və onlar ədalət mühakiməsi qarşısında cavab verməli idilər və bu, belə də oldu.

**- Cənab Prezident, sonuncu sual: "Sərhədsiz reportyorlar" təşkilatı Sizə müraciət edərək, Azərbaycan blogeri Məhəmməd Mirzəliyə qarşı hədələrə və zorakılığa son qoymağa çağırıb. O, Fransada qaçqın kimi yaşayır. Mart ayında burada ona şiddətli hücum edilib, bıçaq xəsarəti alıb. Sualım belədir: "Sərhədsiz reportyorlar" təşkilatının rəyinə görə, Siz həmin şəxsləri susdurmaq məqsədilə xaricə adamlar göndərirsiniz.**

- Əvvəlcə deyim ki, biz "Sərhədsiz reportyorlar" kimi QHT təşkilatı ilə uzun illər əvvəl hər hansı ünsiyyəti dayandırmışıq. Bu, bəlkə də 15 il əvvəl baş verib və bu, onların Azərbaycanla bağlı çox qərəzli və ədalətsiz mövqeyi ilə əlaqədardır. Bu səbəbdən onların hesabatı mənim üçün və Azərbaycan xalqı üçün heç bir əhəmiyyət daşımır. Avropada, o cümlədən Fransada yüzlərlə insan yaşayır və Azərbaycanda gördüyümüz işlər onların xoşlarına gəlmir. Onlar Fransada, başqa ölkələrdə yaşayırlar və heç kəs onlara toxunmur. Əgər sizin ölkədə yaşayan insanla bağlı hadisə baş verirsə, bunun araşdırılması məhz sizin ölkənizin hüquq-mühafizə orqanlarının işidir. Azərbaycanı bu məsələdə günahlandırmaq QHT-nin işi deyil. Sizin istintaqçıların bıçaqla xəsarət yetirmə halı ilə bağlı kifayət qədər sübutları varmı?

**- Siz həmin şəxslə hər hansı əlaqənin olduğunu rədd edirsiniz?**

- Tamamilə belədir. Yüz faiz rədd edirəm. Hər hansı sübut, araşdırma olmadan və kimin hansı cinayəti törətdiyini müəyyən etmədən bütün ittihamlar tamamilə əsassızdır və qərəzlidir.

**- Prezident İlham Əliyev, "France-24" kanalına müsahibə verdiyinizə və kanalımızı seyr etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.**

- Dəvətinizə görə minnətdaram. Sağ olun.

## “Qarabağ Zəfəri təkcə Azərbaycanın deyil, bütün türk dünyasının böyük qələbəsi kimi tarixdə əbədi qalacaq”

Vətən müharibəsində və ya "Dəmir yumruq" əməliyyatında torpaqlarımızı qanları ilə suvaran, 1988-ci ildən başlayan Qarabağ münaqişəsində canından, qanından keçən şəhidlərimizi və qazilərimizi ehtiramla yad edir, bizlərə əmanət olan şəhid ailələrinin qarşısında baş əyirik. Bu Qarabağ Zəfəri təkcə Azərbaycanın deyil, bütün Türkiyənin və türk dünyasının böyük qələbəsi kimi tarixdə əbədi qalacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında ehtiyatda olan türkiyəli general Yücel Karauz bildirib.

İkinci Qarabağ müharibəsinin Azərbaycan üçün Çanaqqala, Malazgirt, Sakarya savaşları kimi böyük bir döyüş yolu olduğunu xatırladan general Yücel Karauz deyib ki, bu Zəfəri Anadolu insanına, 83 milyonluq əhalimizə də qürur mənbəyi kimi yaşadan başda Ali Baş Komandan, Prezident İlham Əliyev olmaqla, bütün Azərbaycan xalqına və müzəffər Azərbaycan Ordusuna hörmət və ehtiramımızı bildiririk.

General Yücel Karauz deyib: "İstanbulun təhlükəsizliyi Bakıdan keçər" fəlsəfəsi ilə hərəkət edən Nuru Paşanın Ordusu Bakıya necə gəlmişdisə, Şuşa Bəyannaməsi ilə tarixin ən yüksək zirvəsinə yüksələn siyasi, hərbi, geosiyasi əlaqələrimiz də bundan sonra əbədi mövcud olacaqdır".

## “İkinci Qarabağ müharibəsindəki Qələbə Azərbaycan tarixində silinməz izlər buraxıb”

Qırx dörd gün davam edən İkinci Qarabağ müharibəsindəki Qələbə Azərbaycan tarixində silinməz izlər buraxıb.

Bunu AZƏRTAC-a müsahibəsində britaniyalı jurnalist Neil Vatson deyib.

Jurnalist bildirib: "27 Sentyabr - Anım Günü Azərbaycanı Qələbəyə aparan tarixin başlanğıcıdır. Bu, Azərbaycan tarixində çox əhəmiyyətli bir gündür. İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı uğurlara görə sevinirəm və bu uğurun davamlı olmasını arzulayıram".

Vatson söyləyib ki, 30 ildən sonra tarixi Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi Azərbaycan Ordusunun nə qədər güclü olduğunu dünyaya bir daha sübut edib. Azərbaycan beynəlxalq hüquqa riayət edərək öz torpaqlarını işğaldan azad edib. Doğma torpağından didərgin düşmüş 1 milyondan çox azərbaycanlının yenidən öz evinə qayıtması xəbəri isə bu ərazilərdə ədalətin bərpa olunduğunu göstərir.

Britaniyalı jurnalist xalqımızı Qələbə münasibətilə təbrik edib, regionda sülhün davamlı olmasını arzulayıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Türkiyə Milli Müdafiə Nazirliyinin nümayəndə heyəti ilə görüşüb

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Türkiyə Milli müdafiə nazirinin müavini Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Ali Məclisin sədri nümayəndə heyətini Naxçıvanda görməkdən məmnunluğunu bildirib, ölkələrimiz arasındakı hərbi əməkdaşlıqdan bəhs edib. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində görülən işləri və həyata keçirilən hərbi təlimləri diqqətə çatdıran Ali Məclisin sədri Naxçıvanda müdafiə təhlükəsizliyinin təmin olunduğunu bildirib, İkinci Qarabağ müharibəsində Türkiyə dövlətinin siyasi dəstəyini qeyd edib. Ali Məclisin sədri ümummilli liderimiz Heydər Əliyevin və Mustafa Kamal Atatürkün əsasını qoyduğu Azərbaycan-Türkiyə əlaqələrinin ölkə Prezidentləri tərəfindən uğurla davam etdirildiyini və strateji tərəfdaşlığın yüksək səviyyədə olduğunu bildirib, Qars müqaviləsi və Şuşa bəyannaməsinin bu mənada əhəmiyyətini vurğulayıb.

Göstərilən səmimi münasibətə və nümayəndə heyəti ilə görüşə görə minnətdarlıq edən Türkiyə Milli müdafiə nazirinin müavini Muhsin Dere Vətən müharibəsində qazanılan tarixi qələbə münasibətilə təbriklərini çatdırıb, şəhidlərin xatirəsinə ehtiramını bildirib. Qonaq ölkələrimiz arasındakı əlaqələrin tərkib hissəsi olaraq ordu quruculuğu sahəsində görülən işlərin vacibliyini vurğulayıb, Naxçıvan Muxtar Respublikasının mühüm strateji və coğrafi əhəmiyyətinə toxunub.

Görüşdə əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## "Zəngəzur dəhlizi bütün bölgə üçün əhəmiyyətli fürsət olacaq"

Zəngəzur dəhlizi bütün bölgə üçün əhəmiyyətli fürsət olacaq. Burada inşa olunacaq avtomobil və dəmir yolu xətləri bütün bölgə ölkələri üçün ticari-iqtisadi imkanlar yaradacaq. Azərbaycan bu dəhlizin reallaşması üçün genişmiqyaslı işlər görür. Təbii ki, Ermənistan tərəfi də öhdəliklərini yerinə yetirməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Soçi səfərindən qayıdarkən media nümayəndələrinə açıqlamasında bildirib.

Soçi səfəri zamanı Rusiya Prezidenti Vladimir Putinlə müxtəlif mövzuların müzakirə olunduğunu deyən Türkiyə Prezidenti bildirib: "Görüşümüzün əsas mövzusu regional məsələlər idi. Suriya, Qarabağ, Liviya və Əfqanıstanda baş verənləri ətraflı şəkildə dəyərləndirmək imkanımız oldu. Eyni zamanda, Azərbaycan məsələsini də müzakirə etdik. Atıla biləcək birgə addımlar haqqında səmimi və səmərəli fikir mübadiləsi apardıq".

Müzakirə olunan digər məsələlərə toxunan Prezident Ərdoğan deyib: "Səfər çərçivəsində Rusiya Prezidenti ilə strateji əməkdaşlıq sahəsi olaraq gördüyümüz enerji sahəsində mövcud əməkdaşlığı daha da inkişaf etdirmək barədə razılığa gəldik. Türk axını və Akkuyu Atom Elektrik Stansiyası layihələri ilə bağlı vəziyyəti qiymətləndirdik. Turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığımızı inkişaf etdirməyin vacibliyini də vurğuladıq. Rusiya bizə turizm sahəsində çox ciddi dəstək verdi. Turizmlə bağlı yaşadığımız problemləri Rusiyadan gələn turistlər sayəsində aradan qaldırdıq".

# Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində terrorla mübarizə mövzusunda növbəti taktiki-xüsusi təlim keçirilib

*Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində terrorla mübarizə mövzusunda növbəti taktiki-xüsusi təlim keçirilib. Təlimi Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev və Türkiyə Respublikası Silahlı Qüvvələrinin mənsubları izləyib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, taktiki-xüsusi təlimin planı ilə tanışlıq zamanı bildirilib ki, əsas diqqət şəxsi heyətin binalarda antiterror əməliyyatlarının aparılması, əsir və girovların azad edilməsi bacarıqlarının təkmilləşdirilməsinə yönəldilib.

Təlimin senarisinə əsasən, əhali arasında çaxnaşma yaratmaq məqsədilə şərti düşmənin təxribat-diversiya qrupunun üzvləri bir neçə nəfər mülki vətəndaşı əsir götürərək tərk edilmiş çoxmərtəbəli binada gizlənirlər.

Terrorçuların zərərsizləşdirilməsi və əsir götürülmüş mülki vətəndaşlarımızın azad edilməsi tapşırığını almış xüsusi təyinatlı qruplar helikopter və zirehli avtomobillərlə eyni anda binaya həmlə edirlər.

Antiterror əməliyyatlarının icrası zamanı yaralanan hərbi qulluqçumuza çevik şəkildə tibbi yardım göstərilir və yaralının təhlükəsiz şəkildə helikopterlə təxliyyəsi həyata keçirilir.

Müxtəlif üsul və vasitələrdən istifadə edərək binaya daxil olan xüsusi təyinatlı qruplar təxribatçıları zərərsizləşdirməyə davam edirlər.

Xüsusi təyinatlılarımız yaxın döyüş və atəş üsullarının tətbiqi ilə təxribatçıları qarşılıqlı əlaqədə fəaliyyət göstərmək imkanından məhrum edərək zərərsizləşdirirlər.

Şərti düşmənin qarşısını alan xüsusi təyinatlılarımız təxribatçıların əksəriyyətini məhv edir, müxtəlif silah nümunələrini ələ keçirir, terrorçuların bir neçəsini əsir götürür və mülki vətəndaşlarımızı sağ olaraq əsirlikdən azad edirlər.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun müşahidəçi və təlimatçı qismində iştirak etdiyi təlimin sonunda mükafatlandırma mərasimi keçirilib.

Mərasimdə Azərbaycan-Türkiyə dostluq əlaqələrindən və hərbi əməkdaşlığından danışan Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev hazırda uğurla davam edən "Sarsılmaz qardaşlıq-2021" birgə döyüş atışlı taktiki təlimi ilə bərabər müxtəlif qoşun növləri və xüsusilə də xüsusi təyinatlı bölmələrlə keçirilən taktiki-xüsusi təlimlərdə hər iki qardaş ölkənin hərbi qulluqçularının yüksək peşəkarlıq, vətənpərvərlik və döyüş əzmi nümayiş etdirdiyini diqqətə çatdırıb.

Sonda hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.





# İşğaldan azad edilən ərazilərdə tikinti-quruculuq işləri davam etdirilir



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, azad edilən ərazilərdə hərbi şəhərciklərin və digər hərbi struktur obyektlərinin kompleks şəkildə inşa edilərək hərbi qulluqçuların istifadəsinə verilməsi istiqamətində aparılan işlər davam etdirilir.

Hərbi qulluqçuların qida təminatının daha da yaxşılaşdırılması məqsədilə Kəlbəcər şəhərində çörək bişirmə sexinin açılışı olub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, açılış mərasimində Müdafiə nazirinin müavinləri - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov və Quru Qoşunları Komandanı general-mayor Ənvər Əfəndiyev iştirak ediblər.

Məruzə olunub ki, Kəlbəcər rayonunda xidmət edən hərbi qulluqçuların isti çörəklə vaxtında təmin edilməsi məqsədilə inşa edilən sex müasir avadanlıq və inventarlarla təchiz olunub. Çörək sexinə zəruri kommunikasiya xətləri çəkilib, fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generator quraşdırılıb.



Sexdə yaradılan şəraitlə tanışlıqdan sonra şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə bağlı Müdafiə nazirinin tapşırıqları komandanlığa çatdırılıb.

# Quru Qoşunları Komandanlığının Komanda İdarəetmə Mərkəzi fəaliyyətə başlayıb

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Quru Qoşunları Komandanlığının bilavasitə tabeliyində olan qüvvə və vasitələrinin dayanıqlı idarə edilməsi, digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin olunması, qoşunlardan və qərargahlardan daxil olan məlumatların təhlil olunaraq yuxarı komandanlığa təqdim edilməsi məqsədilə Komanda İdarəetmə Mərkəzi fəaliyyətə başlayıb.*



Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsi ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən Mərkəzdə Quru Qoşunları Komandanlığının tabeliyindəki hərbi hissələrdə, eləcə də sərhədboyu ərazilərdə gün ərzində baş verən hadisələr barədə brifinq təqdim edilib, komandirlərin məruzələri dinlənilib.

Qeyd olunub ki, hər bir istiqamət üzrə əməliyyat şəraiti optik-elektron müşahidə vasitələri ilə daim nəzarətdə saxlanılır, qoşun növlərinin qüvvə və vasitələri ilə qarşılıqlı fəaliyyət fasiləsiz həyata keçirilir.

# Azərbaycan və Türkiyə istehkamçılarının birgə hazırlığı davam edir

Silahlı Qüvvələrin Ali Baş Komandanın Sərəncamına əsasən, yaradılan istehkam taborlarında qardaş Türkiyə hərbçilərilə birgə gənc istehkamçıların hazırlıq məşğələləri başlayıb. İşğaldan azad edilmiş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizləmək məqsədilə mühəndis bölmələrində ixtisas hazırlıq kursları davam edir. Azərbaycanın və Türkiyənin təcrübəli mütəxəssislərinin cəlb olunduqları mühəndis hazırlığı kurslarında yeni minaaxtaran cihazlardan istifadə olunur. Yeni yaradılan istehkam bölmələri mina və digər partlamayan mərmilərlə çirklənən ərazilərin təmizlənməsini sürətləndirəcək.

Polkovnik-leytenant Emil Əmiraslanov bildirdi ki, erməni işğalından azad edilən ərazilərin minalardan və partlamayan silah-sursatlardan təmizlənməsi istiqamətində mühəndis bölmələri Ağdam, Füzuli və başqa rayonlarda fasiləsiz fəaliyyət göstərirlər.

Mina axtarışına cəlb edilən hərbi qulluqçulara Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin, Türkiyənin və digər ölkələrin istehsalı olan cihazlardan istifadə qaydaları öyrədilir. Belə ki, döyüş zamanı top, "Qrad" və başqa silahlardan atılan mərmilər yerin dərinliyinə nüfuz edərək partlamayıb və onların üzəri torpaq qatı ilə örtülüb. Çirklənən ərazilərdə partlamayan həmin mərmiləri də aşkar edərək zərərsizləşdirilməsi yönündə türkiyəli mütəxəssislərlə birgə keçirilən hazırlıqlar müsbət qiymətləndirilir.

Düşməndən azad edilən ərazilərdə təhlükəsizliyi təmin edilməsi istiqamətində görülən bütün tədbirlər öz töhfəsini verməkdədir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



# Xidmətimiz ərazi bütövlüyümüzün qorunması üçündür



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsi zamanı xalqa müraciətində dedi: "Bizim davamız ədalətli davadır və əminəm ki, bu müharibədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək". Ölkə başçısının bu inamı xalqın inamını kükrətdi. Xalq ruhən döyüşənlərin sırasındaydı...

Vətən müharibəsi zəfərlə başa çatdı, torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində qazanılan Zəfəri xalqın qələbəsi kimi dəyərləndirərək dedi: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq". Belə dəyərli qələbə bu gün hərbi xidmətdə olanların da, çağırışçıların da, yeniyetmələrin də yaddaşına həkk olundu, yeni tarixləşdi. Tarixi yaşadarlar, biz bu tarixi sevə-sevə yaşadacağıq, yaşada-yaşada sevəcəyik.

Hərbi hissəmiz Vətən müharibəsi başlayandan döyüşlərə cəlb olundu. Ali Baş Komandanın əmri ilə başlayan əks-hücum əməliyyatının ilk günündə aldığımız döyüş əmrini əsgərlərimiz hansı duyğu ilə yaşadı? - əsgərlərimiz bu suala birmənalı olaraq deyirlər ki, ancaq qələbə haqqında düşünürdük. Döyüşlər əsgərlərimizin döyüş ruhu və yüksək mənəvi-psixoloji hazırlığa malik olduğunu təsdiqlədi. Biz bu baza müstəvisində əsgərlərimizin mənəvi-psixoloji hazırlığını daha da artırırıq.

Hərbi hissəmizdə şəxsi heyətin döyüş hazırlığı təlimlərdə təkmilləşdirilirdi. Hər əsgər hərbi ixtisasına müvafiq bilikləri öyrənir, terminləri, praktiki vərdişləri mənimsəyirdi. İctimai-siyasi dərslərdə asudə vaxtlarda təşkil edilən müxtəlif məzmunlu söhbətlərdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da yüksəldilirdi. Bütün bunlar əsgərlərimizin döyüş əzmini də, qələbə ruhunu da arzulanan səviyyəyə çatdırmışdı. Hamısı Ali Baş Komandanın əmri ilə başlayacaq Vətən müharibəsini - torpaqlarımızı işğaldan azad edəcək döyüşləri gözləyirdi, xidmətini bu istəklə davam edirdi. Hərbi hissənin döyüşlərdə böyük məsuliyyətlə, qələbə qətiyyətiylə iştirak edəcəyinə biz də əmin idik, yuxarı komandanlıq da....

Hərbi hissəmiz Füzuli, Xocavənd, Zəngilan, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etdi, yuxarı komandanlığın bütün döyüş əmrlərini yerinə yetirdi. Hərbi hissəmizin şəxsi heyəti döyüşlərdə artilleriya dəstəyi verməklə istər mövqe qələbələrinin, istərsə də bütöv zəfərin qazanılmasında əsl hərbçi dəqiqliyi, məsuliyyəti ilə iştirak etdi.

Mən də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni və döyüşdüyümüz rayonların işğaldan azad edilməsi medallarına layiq görüldüm.

Döyüşlərdə şəhid olan hərbi qulluqçularımızın xatirəsini əbədiləşdirmək üçün hərbi hissənin yerləşdiyi rayonda xiyaban yaradılıb. Bu xiyaban həm xidmətdə olan hərbi qulluqçularımızın, həm də yaxın ərazilərdə yaşayan çağırışçıların vətənpərvərlik duyğularının dönməzliyində olduqca əhəmiyyətli olacaq. Bu xiyaban mahiyyət etibarilə ehtiramın təzahürüdür, həm Birinci Qarabağ müharibəsində, həm də Vətən müharibəsində şəhid olanlara ehtiramın...

Hər birimizin xidməti də Zəfər üçündür, Zəfərdən sonra ərazi bütövlüyümüzün toxunulmazlığını təmin etmək üçündür.

Vətən müharibəsində qazanılan Zəfər tarixən yaşadılacaq...

**Polkovnik-leytenant**
**Vasif HƏSƏNOV**
**"N" hərbi hissəsi**

# Azərbaycan və Belarusun hərbi kadr işləri üzrə heyətinin işçi görüşü keçirilib



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan və Belarus Müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planına əsasən, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Kadrlar İdarəsində hərbi kadr işləri üzrə işçi görüşü keçirilib.*

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov qonaqlara Azərbaycan Ordusunda aparılan islahatlar, peşəkar kadr potensialının hazırlanması barədə ətraflı məlumat verib.

Görüşdə hər iki ölkənin hərbi kadr işləri üzrə heyəti arasında qarşılıqlı fikir mübadiləsi aparılıb, xüsusilə hərbi xidmətkeçmə və hərbi kadrların uçotu sahəsində ətraflı müzakirələr edilib.

# Azərbaycan və Belarus Müdafiə nazirliklərinin nümayəndə heyətləri arasında işçi görüşü keçirilib



Azərbaycan və Belarus Müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planına əsasən, Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində "Raket və artilleriya qüvvələrinin inkişafı məsələləri" üzrə işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə hər iki ölkənin Raket və Artilleriya Qoşunları arasında hərbi və hərbi-texniki əməkdaşlıq sahələri haqqında ətraflı fikir mübadiləsi aparılıb, birgə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsi məsələləri müzakirə edilib.

Qonaqlara Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı qələbədə artilleriyaçılarımızın fəaliyyətindən bəhs edilib.

Səfər çərçivəsində Belarus nümayəndə heyətinin Raket və Artilleriya Qoşunlarının hərbi hissələrinə ziyarəti planlaşdırılır.

# "Otuz il bükülü qalan qamətimizi şəhidlərin qanı hesabına dik tuturuq"

Biz bu müharibəni 30 il gözlədik. Sentyabrın 27-də başlayan müharibənin ilk gününü hamımız yaxşı xatırlayırıq. Bəlkə də dünyanın çox ölkəsində müharibə başladığı zaman həmin xalq qorxur, kədərlənir, amma bizim xalq o günü toy-bayram kimi qəbul etdi. Şəhidlərimiz oxuyaraq, rəqs edərək bu müharibəyə qatıldılar, buna hamımız şahidik.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Vətən müharibəsi iştirakçısı tibb xidməti polkovnik-leytenantı Elnur Əliyev ifadə edib.

Real döyüş meydanında, səhra hospitallarında gördüyü qəhrəmanlıq səhnələrindən bəhs edən polkovnik-leytenant Elnur Əliyev deyib: "Şəhidlik zirvədir, şəhidlik öz həyatını gələcək nəsillərə, xalqına bağışlamaqdır. O insanlar xoşbəxtdir ki, Vətən uğrunda mübarizədə şəhid olurlar".

Hərbi həkim qeyd edib ki, 30 il bükülü qalan qamətimizi şəhidlərin qanı hesabına dik tuturuq. Bu gün bəlkə də mən 1993-cü ildə öz kəndindən zorla, müharibə nəticəsində çıxanlardan biriyəm, belə desək, 1 milyon məcburi köçkündən biridə mənəm. Amma ilk dəfədir ki, 30 ildən sonra belə qürurla danışırıq və bunun üçün şəhidlərimizə, qazilərimizə borcluyuq.

# Vətən müharibəsinin ildönümü münasibətilə Ali Hərbi Məktəbdə tədbir keçirilib



Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Anım tədbirində şəhidlərin ailə üzvləri və yaxınları, məktəbin müəllim, zabit və kursantları iştirak ediblər.

Tədbirdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfər haqqında geniş məlumat verilib. Şanlı qələbənin qazanılmasında Hərbi Məktəbin zabit və kursantlarının əvəzsiz rolu olduğu xüsusi vurğulanıb. Vətən müharibəsinin tariximizin ən parlaq səhifəsi olduğu qeyd edilib.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi vətənpərvərlik mövzusunda musiqili kompozisiya ilə çıxış edib.

# Türkiyəyə göndərilən daha 3 qazimiz sağalaraq Vətənə geri dönüb

Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 3 qazimiz sağalaraq Vətənə geri dönüb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, həmin qazilər İdrisov Ərşad Rafiq oğlu, Misirzadə Rahib Mübariz oğlu, Əmənli Nurlan Şirzad oğludur. Onların Türkiyədəki müalicə proseduru uğurla yekunlaşıb, qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

"YAŞAT" Fondu tərəfindən Türkiyədən ölkəmizə gətirilən, həmçinin yerli həkimlərin rəyi nəzərə alınaraq hazırda daha 43 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.

Allah qazilərimizə şəfa versin!

# Hərbi liseydə "Azərkitab"ın təşkilatçılığı ilə kursantlarla görüş keçirildi



Sentyabrın 29-da Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "Azərkitab" kitab mərkəzinin mətbuat katibinin kursantlarla görüşü oldu. Polkovnik Müslüm Nəsirov qonağı Heydər Əliyev Muzeyi ilə tanış edərək hərbi liseydə xalqımızın ümummilli lideri Heydər Əliyevin müxtəlif illərdə hərbçilərlə görüşlərindən hazırlanan foto stendlər barədə məlumat verdi.

"Azərkitab" kitab mərkəzinin mətbuat katibi, yazıçı-bəstəkar Aysel Kərimova muzeyin konfrans zalında kursantlarla görüşdü.

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Elvin Əzizov çıxış edərək "Azərkitab"ın hərbçilərlə ilk görüşü olduğunu və bundan sonra da digər hərbi hissələrdə belə tədbirlərin mütəmadi olacağını bildirdi. "Bu cür görüşlər hərbçilərdə kitaba maraq oyadır, onların bilik və bacarıqlarının artırılmasına xidmət edir".

Tədbirdə çıxış edən Aysel Kərimova kursantlarla Azərbaycanın müasir ədəbiyyatının ən görkəmli simalarının və gənc yazarlarının belə görüşlərə qatılacağını vurğuladı. Xanım yazıçı onu da qeyd etdi ki, belə görüşlərdə hərbçilər və kitab müəllifləri arasında fikir mübadiləsi aparılacaq. Həmçinin mətbuat katibi Azərbaycan Ordusunun torpaqlarımızı erməni vandallarının işğalından azad etməyə başladığı ilk günlərdən də söz açdı. Müzəffər Ali Baş Komandanın "Dəmir yumruq", "Qarabağ Azərbaycandır!" tezislərini xatırladan Aysel xanım 44 gün ərzində Vətənimizin ərazi bütövlüyünün təmin olunduğunu və ordumuzun igid döyüşçülərinin düşmənə sarsıdıcı zərbələr vuraraq məğlubiyyətə düçar etdiyini qeyd etdi. Azərbaycan Ordusunun şanlı qələbəsinin ədəbiyyatdan da yan keçmədiyini tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Aysel Kərimova onu da əlavə etdi ki, İkinci Qarabağ müharibəsi gedən ərəfədə də, sonralar da yazıçılar, şairlər, bəstəkarlar vətənpərvər mövzularla hər zaman cəbhədə döyüşən əsgər və zabitləri ruhlandıracaq əsərləri ilə öz töhfələrini veriblər.

Tədbirin sonunda Aysel Kərimova "Azərkitab" kitab mərkəzinin rəhbərliyi adından Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarına kitablar hədiyyə etdi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Müdrik rəhbər və əzmkar xalq tandeminin qələbəsi



***Hər kəsə məlumdur ki, bu gün ən gərgin iş rejimində çalışan dövlət başçılarından biri də möhtərəm Prezident cənab İlham Əliyevdir. Təbii ki, bu ölkə rəhbərində olan Vətən və xalq sevgisindən irəli gəlir. Bunun nəticəsidir ki, xalq da öz liderinə sonsuz məhəbbət bəsləyir, onun ətrafında sıx birləşir və hər bir vətəndaş öz üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşır. Qəti əminliklə söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, dövlətin yürütdüyü siyasətin xalq tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Bu birliyin, eləcə də cənab Prezidentin müdrik siyasətinin, yorulmaz fəaliyyətinin və xalqın əzmkarlığının məntiqi nəticəsi olaraq Azərbaycan ardıcıl uğurlar əldə edərək daha da qüdrətlənir.***

Belə ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik və zamanı önləyən siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin mükəmməl siyasi strategiyası ilə xalqın əzmkarlığının sıx birliyi sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür, iqtisadiyyat güclənir, müxtəlif sahələrdə ardıcıl uğurlar əldə edilir və vətənimiz Azərbaycan dünya ölkələri sırasında tutduğu layiqli mövqeyini daha da möhkəmləndirir. Planetimizin üzləşdiyi çoxsaylı qlobal çətinliklərə, ümumbəşəri ciddi və mürəkkəb problemlərə, eləcə də bütün dünyanı bürüyən koronavirus (COVID-19) pandemiyasına rəğmən, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mükəmməl daxili və xarici siyasət sayəsində ölkəmiz hazırda da eyni templə inkişaf edir. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə nəhəng layihələr reallaşdırılır, qeyri-neft məhsullarının istehsalının və ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülür, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin daha da sağlamlaşdırılması, özəl sektorda təşviq alətlərinin tətbiqi nəzarətdə saxlanılır, aqrar sektora, kiçik və orta sahibkarlığa daim dövlət dəstəyi göstərilir. Qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin uğurla gerçəkləşdirilməsi, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, eyni zamanda qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin yüksəldilməsi, əhalinin sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi dövlət başçısının iqtisadi siyasətinin əsas qayəsini təşkil edir. Demokratikləşmə və vətəndaş cəmiyyəti quruculuğu prosesi, liberal iqtisadi-siyasi mühitin, habelə ölkədə güclü insan kapitalının formalaşdırılmasına xidmət edən milli maarifçilik hərəkatının başlanması, cəmiyyətdə müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi və digər zəruri məsələlər ölkə başçısının xüsusi diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilir. Təsadüfi deyil ki, ən nüfuzlu aparıcı beynəlxalq qurumlardan biri olan Dünya Bankının "Doing Business" proqramında Azərbaycan 190 ölkə arasında 28-ci yeri tutmuşdur. Bundan əlavə, Respublikamız 10 ən islahatçı dövlət sırasına daxil edilmişdir. Dünyanın bir nömrəli forumu olan Davos Ümumdünya İqtisadi Forumunun hesabatına əsasən, inkişaf etmədə olan 74 ölkə arasında dövlətimiz əhalinin elektrik təchizatı səviyyəsinə görə 2-ci yerdə, inklüziv inkişaf indeksi üzrə 3-cü yerdə, hökumətin dəyişməyə cavabdehliyi, yeni, islahatçı obrazı əmsalına görə 5-ci yerdə, hökumətin uzunmüddətli strategiyasına görə 10-cu yerdə, hökumətin siyasi sabitliyi təmin etməsinə görə 11-ci yerdə, infrastruktur layihələri ilə bağlı dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci yerdə, hava yolları xidmətlərinin səmərəliliyinə görə 12-ci yerdə, avtomobil yollarının keyfiyyətinə görə 24-27-ci yerdə qərarlaşmaqla dünyanın bir çox ölkələrini geridə qoymuşdur.

Dövlət başçısının müdrik siyasətinin gerçəkləşməsində, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın zəhməti və fəaliyyəti misilsizdir. Qürurverici və sevindiricidir ki, vaxtilə Mehriban xanımın xarici və daxili siyasətdə apardığı və bütün dünyada etiraf olunan fəaliyyəti hazırda yeni statusda daha yüksək səmərəliliklə davam edir, bu da öz növbəsində xalqımızın və dövlətimizin uğurlarını şərtləndirir. Azərbaycanın birinci xanımının müstəsna əhəmiyyətli fəaliyyəti ölkə hüdudları ilə məhdudlaşmayıb ümumbəşəri mahiyyəti ilə də diqqəti cəlb edir. Koronavirus (COVID-19) pandemiyasına qarşı uğurlu mübarizədə də Birinci vitse-prezidentin ali insanpərvər və xeyirxah missiyası, amalı növbəti dəfə mühüm rol oynadı. Ölkənin birinci xanımı xalqa müraciət edərək hamını "gözəgörünməz düşmən"lə mübarizədə birlik, həmrəylik nümayiş etdirməyə səslədi. Xalqa bir övlad, bir ana və nənə olaraq müraciət edən Mehriban xanım hər kəsi evdə qalmağa, bir-birini qorumağa səslədi. Birinci vitse-prezidentin "Evdə qal, sağlam qal!" şüarı dillər əzbəri oldu və hamı ona riayət edərək, zərurət olmadığı təqdirdə evdən çıxmadı, bu da koronavirus infeksiyasına qarşı mübarizəyə öz müsbət təsirini göstərdi. Mehriban Əliyevanın hər zaman ehtiyaclı insanların yanında olması, onlara diqqət və qayğı göstərməsi böyükqəlbli şəxsiyyətin insanpərvərliyinin təsdiqidir. Onun Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva ilə birlikdə uşaq evlərinin sakinləri, internat məktəblərinin şagirdləri, xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələr, eləcə də şəhid ailələrindən olan uşaqlar üçün keçirilən şənliklərdə mütəmadi olaraq iştirak etməsi, bu zümrədən olan insanlara öz doğma övladları qədər məhəbbət bəsləməsinin əyani göstəricisidir.

Ölkəmizin uğurlarından, dövlətimizin qüdrətindən danışarkən, böyük fəxr və sevinc hissləri ilə xüsusi vurğulanmalıdır ki, ötən il nəinki həmin ilin, müasir Azərbaycan tarixinin ən önəmli hadisəsi baş vermişdir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı tarix yazan ordumuz düşmən üzərində parlaq qələbə qazanmış, nəticədə hərbi və siyasi yolla 30 ilə yaxın işğal altında olan dədə-baba torpaqlarımız azad olunaraq, ərazi bütövlüyümüz bərpa edilmişdir.

Bütün dünyaya məlumdur ki, Ermənistan uzun müddət ərzində Azərbaycanın 20 faiz ərazisini, beynəlxalq səviyyədə tanınmış tarixi torpaqlarını - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayırdı. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılmasını nəzərdə tutan müddəaları özündə əks etdirən 822, 853, 874 və 884 saylı dörd qətnaməsinin qəbul olunmasına baxmayaraq, həmin qətnamələr icra olunmur, bununla əlaqədar aidiyyəti beynəlxalq təşkilatlar heç bir tədbir görmür və sözügedən məsələyə biganə münasibət bəsləyirdilər. Ermənistan da bu illər ərzində mövcud vəziyyətdən istifadə edərək qeyd olunan qətnamələri yerinə yetirmir, hər vəchlə münaqişəni mümkün qədər çox və daha uzun müddətə dondurmağa çalışır və status-kvonun qəbuledilməz və dəyişdirilməli olması barədə beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bütün çağırışlarına məhəl qoymayaraq onları cavabsız qoyurdu. Buna görə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər dəfə mötəbər kürsülərdən deyirdi ki: "...Əgər bu məsələ sülh yolu ilə həll olunmasa, bunu hərbi yolla həll edəcəyik...".

27 sentyabr 2020-ci il tarixdə səhər saatlarında Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iri çaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Ordumuz düşmənin hücumunun qarşısını qətiyyətlə aldı, əks-hücum əməliyyatları həyata keçirtdi və bununla da İkinci Qarabağ müharibəsi başladı. Hamı Vətən müharibəsinin qələbə ilə başa çatması üçün əlindən gələni əsirgəmədi. Dövlət başçısı cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı dillərdə əzbər olmaqla xalqı öz liderinin ətrafında daha da sıx birləşdirərək mülki vətəndaşlarda mübarizə əzmi, hərbçilərimizdə böyük qələbə ruhu yaratdı. 44 günlük döyüşlərdə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun şəxsi heyətinin şücaəti hərb tariximizin qəhrəmanlıq salnaməsini yaradaraq ölkəmizə möhtəşəm qələbə qazandırdı. Elə ilk günlərdən düşmənə sarsıdıcı zərbələr vuran ordumuzun qısa zamanda ardıcıl zəfərlər qazanmaqla kəndlərimizi, qəsəbələrimizi, şəhərlərimizi - 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və nəhayət 8 noyabrda Şuşa şəhərini işğaldan azad etməsi Ermənistanı sülhə sövq etdi və bu, düşmənin kapitulyasiya aktını imzalaması ilə nəticələndi. Bununla da, haqq mübarizəsi hərbi-siyasi qələbəmizlə başa çatdı. Ardınca 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər və 1 dekabrda isə Laçın nəinki şəhid verilmədən, ümumiyyətlə qan tökülmədən azad olundu.

Hər zaman xalqının yanında olmaqla sevinci də, kədəri də birlikdə bölüşən dövlət başçısı cənab İlham Əliyev qısa müddət sonra bütün mövcud riskləri gözə alaraq, xanımı ilə birlikdə möhtəşəm qələbəmizin sevincini bir daha azad olunmuş ərazilərdə xalqımızla paylaşmaq üçün tarixi sahiblərinə qaytarılmış torpaqlara səfər etdi. Bu, əsl dövlət-xalq birliyinin, Azərbaycan xalqı ilə Prezidenti, Birinci vitse-prezidenti arasında olan qarşılıqlı sevgisinin növbəti bariz təzahürü idi. Qürurverici haldır ki, işğaldan azad edilmiş torpaqlarımızda icrasına başlanmış ilk layihə məhz Füzuli-Şuşa yolu oldu. Təbii ki, bu yolun həm müstəsna əhəmiyyəti həm də rəmzi mənası vardır. Çünki Şuşa mədəniyyət beşiyimiz və qürur mənbəyimizdir. Cənab Prezident İlham Əliyevin Füzuli rayonunda sakinlərlə görüşü zamanı çıxışında dediyi kimi, məhz Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək.

Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfərləri zamanı Müzəffər Ali Baş Komandanın Füzuli şəhərində, Xudafərin körpüsündə, Cəbrayıl şəhərində və digər tarixi ərazilərimizdə üçrəngli şanlı Azərbaycan bayrağını göylərə ucaltması özgə bir qürurverici mənzərə idi. Xüsusi vurğulanmalıdır ki, bu görüntülər Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindən biri idi.

Göründüyü kimi, bu gün Azərbaycanımız müdrik liderimiz cənab İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli uğurlar qazanır və qüdrətlənir ki, bu da ölkəmizin, xalqımızın daha parlaq gələcəyindən xəbər verir.

**Ədliyyə polkovnik-leytenantı**
**Səməd ƏLİYEV**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Vətəni qorumaq şərəfdir. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi.

***İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Vətən müharibəsində tarix yazan hərbi hissənin döyüşçülərinin qəhrəmanlıqlarını dinləyicilərə bir daha xatırlatmalı və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.***

**Suallar:**

**1. Vətəni qorumaq şərəfdir.**

**2. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi.**

### Vətəni qorumaq şərəfdir

Vətən ancaq üzərində gəzdiyimiz, yaşadığımız torpaq parçası deyil. Özünün bayrağı, müstəqilliyi, suverenliyi, milli dövlət himni, sərhədləri olan torpağa Vətən deyilir. Vətən azadlıqdır. Torpağın Vətən olması üçün düşmənlərlə mübarizə aparmaq, onun üzərində zəfər qazanmaq lazımdır. Vətən xalqın müqəddəs dəyərlərindən biridir. Xalq yalnız öz Vətənini qorumaqla gələcəyinə təminat verə bilər. Vətənin müdafiəsi bizim üçün inanc, iman olmalıdır. Vətənə olan sevgimiz bizi ucaldır.

Vətən bir millətin üzərində yaşadığı coğrafiyadır. Torpağı Vətən edən millətin onda yaşadığı tarix, onunla qurduğu mədəniyyət əlaqələridir. Vətən millətin doğulduğu, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də Vətəndə yaşayan ailədir. Vətən bizlərin qorumalı olduğumuz anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Vətən həyata havasını tənəffüs etməklə başladığımız yerdir. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır. Vətən bədənimizin bir parçasıdır. Vətən atalarımızın qəbiristanlığı, övladlarımızın dünyaya gəldiyi yerdir. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, Vətənin daşını, havasını, suyunu sevmək deməkdir.

Vətənə bağlılıq onu sevmək, qorumaq və inkişaf etdirməkdir. Çünki nə Vətənsiz bir millət, nə də millətsiz bir Vətən ola bilər. Vətən əldən gedərsə, o millətin hər cür milli-mənəvi dəyərləri də yox olub gedər. Vətəni qorumaq dövlət və milləti qorumaq, Vətəni sevmək də dövlət və milləti sevməkdir. Vətənə bağlılıq milli-mənəvi dəyərlərə, ailəyə, bayrağa, dilə, tarixə, adət-ənənəyə, dinə, sənətə, milli birlik və bərabərliyə bağlılıqdır. Vətəni sevmək, onu düşmənlərə verməmək, hər cür hücum ehtimalına qarşı tədbirli olmaq və lazım olduğu zaman onun üçün canını vermək müqəddəs bir vəzifədir. Milli-mənəvi dəyərlərini, haqqı, həqiqəti, namusu, şan-şərəfi sevən bir insan Vətənini də mütləq sevməlidir. Çünki insan Vətənsiz yaşaya bilməz.

Vətənə hücum varlığımıza, birlik-bərabərliyimizə, azadlığımıza edilən hücumdur. Buna görə Vətən düşmənlərinə qarşı ayıq-sayıq olmaq, onlarla mübarizə etmək ən böyük və ümdə vəzifəmizdir. Bu vəzifəni yerinə yetirərkən ölmək həyatdan şərəflə ayrılmaq, şəhid olub ən uca mərtəbələrə çatmaqdır, yaralanmaq isə şərəflə dönməkdir, qazilikdir. Vətəni sevmək təhlükə anında Vətənin imdadına yetişmək, lazım olduğunda canını sevə-sevə verə bilməkdir. Sülh zamanında isə onun abadlığına çalışmaq, maddi-mənəvi inkişaf və yüksəlməsini hədəf və məqsəd seçməkdir. Xeyirli olan işləri yaymaq, vətəndaşlara kömək etmək, Vətənin səadəti üçün səy göstərmək, onun möhkəmliyini və əmin-amanlığını təmin etməyə çalışmaqdır.

Azərbaycan strateji cəhətdən əlverişli mövqedə yerləşməklə yanaşı, iri həcmdə təbii sərvətlər ehtiyatına sahibdir. Buna görə ölkəmizi ələ keçirməyə çalışan qüvvələr həmişə fürsət axtarırlar. Tarixin ayrı-ayrı dönəmlərində ölkəmiz həmişə yadellilərin hücumlarına məruz qalıb. Lakin torpaqlarının müdafiəsini hər şeydən üstün bilən atalarımız Vətənlərini canları bahasına qoruyub bizə əmanət ediblər. Verilən vədə əməl etmək lazımdır, bu, bizim dinimiz, inancımız, insanlığımız gərəyi üzərimizə yüklədiyimiz ən ali və müqəddəs vəzifə olmalıdır. Çünki min illərdir hakimiyyətimizi davam etdirdiyimiz bu torpaqları gələcəyə aparmaq lazımdır, onu başqa xalqların əsarəti altına atmaq insanlığa sığmaz. Heç bir halda Vətənin müdafiəsindən geri çəkilməməliyik, ən çətin anlarda belə bayrağımızı yüksəkliklərə qaldırmalı, ölkəmizin adının ən yaxşılar sırasında çəkilməsi naminə ən ağır şəraitlərdə belə çalışmaqdan geri durmamalıyıq. Hər birimiz bu Vətənin könüllü əsgərləriyik. Biz Vətənə xidmət borcunu bu torpağa olan mənəvi borc kimi verməliyik. Biz həyatımızın sonuna kimi Vətənimizə borcluyuq. Azərbaycan bizim qürur yerimizdir. Öz Vətənini düşünən hər bir insan üçün vətənpərvərlik bir ideologiya olmalıdır. Milli şüura sahib olmaq Vətənə məhəbbətdən qaynaqlanır.

Əcdadlarımızın mirasına sahib çıxaraq 44 günlük Vətən müharibəsində bütün dünyaya birliyimizi, Vətən sevgisini göstərdik. Vətən sevgisindən mayalanmış igidliklə region üçün təhlükə mənbəyi olan Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi cahana Azərbaycan adlı məmləkəti tanıtdı.

Ümummilli lider Heydər Əliyev deyirdi: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Bəli, Azərbaycanın gələcək varlığı naminə nəinki gənclər, hər birimiz vətənpərvər olmalıyıq. Çünki borcumuzun olduğu bu Vətəni qorumaq bizim ən ümdə amalımızdır.

### Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi

XX əsrin sonlarında, bir zamanlar ermənilərin yaşaması üçün köçürüldükləri əzəli Azərbaycan torpağı olan Qarabağa sahib olmaq üçün bu mənfurlar ölkəmizə qarşı hərbi təcavüzə başlamış, etnik təmizləmə siyasəti apararaq soyqırımlar törətmiş, minlərlə dinc əhalini qətlə yetirmiş, bir milyondan artıq azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmışdırlar. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır.

2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan hərbi təxribata əl ataraq, apreldə təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerlərini ağır silahlardan atəşə tutdu. Azərbaycan Silahlı Qüvvələrinin əks-həmləsi nəticəsində düşmənə layiqli cavab verilərək, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altında olan ərazilərinin müəyyən hissəsi azad edildi. Bu döyüşlərdə Şükür Həmidov, Murad Mirzəyev, Samid İmanov kimi xalqımızın igid övladlarının göstərdikləri qəhrəmanlıqları və şücaətləri Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını göstərdi.

2020-ci ilin iyulunda dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş verən hərbi əməliyyatlar isə Azərbaycanın taleyində ciddi dönüş nöqtəsi oldu. Vətən sevgisi döyüş meydanında generalı əsgərdən ayırmadı. Qaraqayada şəhid olan general-mayor Polad Həşimovun cəsarəti, vətənpərvərliyi, qorxmazlığı və ən nəhayət düşmənə sonsuz nifrəti 27 sentyabrda əks-hücum əməliyyatı ilə başlanan Vətən müharibəsinin qəhrəmanlıq simvoluna çevrildi. Onun vəzifə borcunu qəhrəmanlıqla yerinə yetirərək şəhadətə qovuşması Azərbaycan Ordusunun Vətən müharibəsində rəşadət göstərməsinə gətirib çıxardı.

2020-ci ilin iyul, avqust və sentyabr aylarında ardıcıl baş verən təxribatlar nəticəsində yenidən atəşkəs pozuldu, mülki əhaliyə kəşfiyyat-diversiya qrupları tərəfindən hücumlar edildi. 2020-ci ilin 27 sentyabrında Azərbaycanın şəhər və kəndlərinin ağır artilleriyadan bombardmana tutulması Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu "Dəmir yumruq" əməliyyatına başlamasına səbəb oldu. Ölümdən tək zərrə qədər qorxmayaraq Qarabağımızı geri qaytarmaq üçün canlarını heçə saymağa razı olduqlarını göstərən bu yurdun minlərlə igid övladları, Xocalı soyqırımı qurbanlarının, mənfur düşməni tanımayan Zəhranın, Aysunun, Mədinənin və neçə belə körpənin intiqamının alınması üçün könüllü cəbhəyə yazıldı. 44 günlük Vətən müharibəsi erməni silahlı qüvvələri və Qarabağda formalaşan terror qruplaşmalarının darmadağın edilməsi və Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusunun mərdliyi, qəhrəmanlığı, fədakarlığı sayəsində işğal altında olan ərazilərimiz, o cümlədən rayon, şəhər və digər 300-dən çox yaşayış məntəqəsi, həmçinin Murovdağ istiqamətlərində mühüm strateji yüksəkliklər azad edildi. Xüsusi Təyinatlılarımız fövqəladə qəhrəmanlıq göstərdilər. Onlar öz yaralılarını və şəhidlərini döyüş meydanında buraxmayaraq qayalardan dırmaşaraq Şuşada möhkəmlənmiş üç mindən çox erməni elit hərbi hissələrinin canlı qüvvəsini, döyüş texnikalarını qoyaraq qaçmağa məcbur etdilər. Təbii coğrafi istehkam olan Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan atıcı silahlarla azad edilməsi dünya tarixində görünməmiş döyüş nümunələrindən biridir. Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi. Qəhrəman Azərbaycan əsgərləri kiçik qüvvə ilə Zəngilanı azad etdi, Cəbrayılda erməni zabitləri Azərbaycan Ordusunun mübarizə əzminin qarşısında aciz qalaraq öz əsgərlərinə döyüşməyin mənasız olduğunu deyərək qaçmışdılar. Hadrutda 30 nəfərlik xüsusi təyinatlı dəstəmiz 1500 nəfər erməni muzdlusunu qaçmağa məcbur etmişdir.

Biz bu Vətən müharibəsində oğullarımızın qəhrəman ruhunu gördük. Onların qəhrəmanlıqları dillərə dastan oldu, silinməz mürəkkəblə tarixə yazıldı. Çiynində yaralı əsgəri daşıya-daşıya irəliyə addımlayan, irəliyə köklənən, öz qanını Vətən torpağı uğrunda axıdan bu igidlər şücaəti, dönməzliyi, müzəffərliyi ilə bizə bu qələbəni yaşatdılar. Məhz onlar Mübariz, Fərid kimi igidlərin yenə də ordumuzun sıralarında yetərincə olduğunu bütün dünyaya sübut etdilər. Məhz onlar kimi minlərlə igid bir əlində silah, bir əlində bayraq sinəsini düşmənə sipər edərək, öz nəfəslərini kəsərək Azərbaycanımıza - Qarabağamıza nəfəs verdilər. Onlara bu dərəcədə böyük cəsarəti, qorxmazlığı verən Vətən eşqi olub. Onlar bizim birlik nişanəmiz, Vətən sevdamız, Azadlıq qələbəmizdir. Prezident İlham Əliyevin dediyi kimi: "Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi Vətən uğrunda canından keçməyə hazır olan qəhrəmanlarımız var!".

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin 83 nəfər hərbi qulluqçusuna (onlardan 39 nəfərinə ölümündən sonra) Müzəffər Ali Baş Komandan İlham Əliyevin Sərəncamına əsasən "Vətən Müharibəsin Qəhrəmanı" adı verilmişdir.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabrı - Vətən müharibəsinin başladığı günü Azərbaycan Respublikasında "Anım Günü" kimi qeyd olunması ilə bağlı Sərəncam imzalamışdır. Bu addım şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Ordusunu yaratdı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev isə onu dünyanın ən güclüləri sırasına çıxartdı. Bu ordu qarşısında duran tarixi missiyanı, yaradıcısı olan ümummilli lider Heydər Əliyevin arzusunu və vəsiyyətini yerinə yetirdi. Odur ki, bu gün ümummilli lider Heydər Əliyevin ruhu rahatdır və bu qələbə həm də Ulu Öndərin ideyalarının təntənəsidir. Azərbaycan xalqı zəfər çalaraq şanlı qəhrəmanlıq salnaməsi yazdı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Vətənin çağırışına səs verən oğullar





Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canından keçən Vətən övladlarını tanımaq və tanıtmaq məqsədilə "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbirlər silsiləsindən şəhid Elvin Səxavət oğlu Abasovun xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Mərasim açıq elan edildikdən sonra ulu öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə canından keçən Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Şəhid Elvin Abasovun həyat və döyüş yolundan bəhs edən videoçarx nümayiş etdirildi.

İştirakçıların böyük marağına səbəb olan videoçarxın nümayişindən sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov çıxış etdi:

- Bu gün hamımız qürur dolu anlar yaşayırıq. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün ərzində erməni qəsbkarlarının əsarətində qalan torpaqlarımızı işğaldan azad etdi. Bu gün alnımız açıqdır, üzümüz gülür. Çünki şanlı Zəfəri bizlər yaşadıq. Təəssüflər ki, yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə Elvin kimi cəsur oğullarımızı da itirdik. Əminliklə vurğulamaq istəyirəm ki, Vətən uğrunda döyüşən və şəhid olan oğullar heç vaxt unudulmayacaq. Daim onları anacaq və döyüşlərdə göstərdikləri qəhrəmanlıqları gənc nəslə aşılayacağıq.

Şəhidin atası Səxavət Abasov çıxış edərək oğlu ilə bağlı olan xatirələrini tədbir iştirakçıları ilə bölüşdü. Onun ömür və döyüş yolundan qısaca söz açdı. Bildirdi ki, övladı Elvin 17 iyun 1993-cü ildə Şamaxı rayonunda dünyaya göz açıb. 1999-2010-cu illərdə Bakı şəhəri 56 nömrəli orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirəndən sonra Azərbaycan Texniki Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Texniki Kollecində təhsil almağa başlayıb. 18 yaşı tamam olanda təhsilini yarımçıq qoyaraq əsgəri xidmətə yollanıb. Onu da deyim ki, hələ kiçik yaşlarından Elvinin ordu həyatına böyük marağı var idi. Ona görə hərbi xidmətə böyük həvəslə getdi. 2013-2015-ci illərdə Vətən qarşısındakı övladlıq borcunu cəbhə bölgəsində yerləşən hərbi hissədə yerinə yetirdi. Nümunəvi xidmətinə görə Elvin bir neçə dəfə komandirləri tərəfindən Fəxri fərmanla mükafatlandırılmışdı. Ordu sıralarından qayıtdıqdan sonra təhsilini davam etdirdi. Lakin torpaqlarımızın erməni qəsbkarlarının işğalında qalması bir vətəndaş kimi onu da çox narahat edirdi. Həmişə deyirdi ki, əgər yurdumuzun azadlığı uğrunda döyüşlər başlayarsa, mən mütləq Vətənin çağırışına səs verəcəm. Oğlum dediyi kimi də elədi. 2020-ci il oktyabrın 9-da Vətən müharibəsinə yollandı. Hərdən evə zəng vurub, sağsalamat olduğunu, düşmənlərə sarsıdıcı zərbələr vuraraq torpaqlarımızı azad etdiklərini deyirdi. Sonra onun Xocavənd istiqamətində gedən döyüşlərdə yaralandığını eşitdik. Bu xəbər bütün varlığımızı sarsıtdı. Bir müddət komada qaldı. Təəssüflər olsun ki, komadan ayılmadı, 22 noyabr 2020-ci ildə şəhid oldu. Döyüşlərdə göstərdiyi igidliyə, cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə oğlum "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görüldü.

Vətən müharibəsində şəhidin komandiri olan leytenant Zabil İsgəndərov və əsgər yoldaşları Babək Əsədov, Rabil Əliyev, Nurlan Nuruyev, Orxan Məmmədov və başqaları Elvinin İkinci Qarabağ müharibəsində göstərdiyi igidlik və qəhrəmanlığından ətraflı danışdılar.

"Ədalət yolu" qəzetinin və xəbər portalının baş redaktoru Yasəmən Qəyyumlu təsis etdikləri "Zəfər" diplomunu şəhidin anası Bahar Abasovaya təqdim etdi. Və bildirdi ki, "Zəfər" diplomunu bütün şəhid ailələrinə verəcəyik. Onlar Vətən üçün belə cəsur oğullar böyütdüklərinə görə bu ehtirama layiqdirlər.

Şəhid Elvin Abasovun müəllimləri, yaxınları da çıxış edərək onun həyat və döyüş yolu barədə iştirakçıları geniş məlumatlandırdılar.

Şəhid anası Bahar Abasova övladının xatirəsini əziz tutduqlarına görə ölkə başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbir iştirakçılarına dərin minnətdarlığını bildirdi.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən mahnılar oxudular.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Yaylım atəşli "Smerç" reaktiv sistemi



Yaylım atəşli "Smerç" reaktiv sistemi dünyada ən güclü silah sistemlərindən biridir. Bu sistem 1987-ci ildə yaradılıb və hazırda bir çox ölkələrin silahlanmasında yer alır. Keçmiş sovetlər birliyində hazırlanmış "Smerç" reaktiv sistemi 300 mm-lik mərmilərə malikdir. 90 kilometr məsafəni vurmağa qadirdir. "Smerç" istismar müddətində bir neçə dəfə modernləşdirilib. Döyüş maşını dünyada yaylım atəşli yüksək uzaqvurma qabiliyyətinə malik olan sistem kimi hazırda da silahlanmada yer alır. Reaktiv sisteminin tərkibinə döyüş maşını, 300 mm-lik reaktiv mərmilər, nəqliyyat-təchizat maşını, meteoroloji kompleks və xüsusi avadanlıqlar daxildir. Döyüş maşını yüksək keçidliyə malikdir. Sistemin təchizat maşını 12 ədəd reaktiv mərmini daşıya bilir. Artilleriya hissəsi isə 12 ədəd boruşəkilli istiqamətləndiricidən, fırlanan gövdədən, qaldırıcı və dönən mexanizmlərdən ibarətdir. Bundan başqa döyüş maşını hidravlik dayaqlarla da təchiz edilib. Maşında 525 at gücündə 12 silindrli dizel mühərriki quraşdırılıb. Onun təkər formulu 8x8-dir. Şose yolda saatda 60 kilometr sürətlə hərəkət edə bilir və bütün maneələri dəf etməyə qadirdir. Asfalt yolda ehtiyat hərəkəti 900 kilometrdir. Onun hər bir reaktiv mərmisi inersiya idarəetmə sistemi ilə təchiz edilib. Raketdən atəş tək-tək və yaylımla açıla bilər. Raketin hər birinin uzunluğu 7,5 metr, çəkisi isə 800 kiloqramdır və onun 200 kiloqramı əsas hissəsi tutur. Əsas hissədə isə 72 döyüş elementi vardır.

Sistemin uzunluğu 12370 mm, eni 3050 mm, çəkisi isə 47,3 tondur. Kompleks təqribən 20 dəqiqə ərzində təchiz oluna bilər. Reaktiv sistem 3 dəqiqə ərzində səyyar vəziyyətindən döyüş vəziyyətinə gətirilir. Döyüş maşınının heyəti dörd nəfərdən ibarətdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Champions Chess Tour": Teymur Rəcəbov Levon Aronyanı məğlub edib



Norveçli dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi "Champions Chess Tour"-un final mərhələsinin beşinci turunun oyunları keçirilib.

Azərbaycan şahmatçısı Teymur Rəcəbov bu turda ermənistanlı Levon Aronyan üzərində 2,5:1,5 hesablı qələbə qazanıb.

Xatırladaq ki, hər matçda rapid üzrə dörd partiya oynanılır. Qalib müəyyənləşməzsə, blits və Armageddon görüşlərinin oynanılması nəzərdə tutulur.

Turnirin mükafat fondu 100 min ABŞ dollarıdır.

## UEFA Konfrans Liqası: "Qarabağ" "Omoniya" klubunu məğlub edib



UEFA Konfrans Liqasının qrup mərhələsinin ikinci turunda "Qarabağ" səfərdə "Omoniya" klubunu məğlub edib.

Görüşdə hesabı Kipr təmsilçisinin futbolçusu Yan Letsyaks açıb. Lakin Ağdam klubunun heyətində Kadi Borges hesabı bərabərləşdirib. Görüşün 73-cü dəqiqəsində Ramil Şeydayev komandamızı hesabda irəli çıxarıb. Qarşılaşmanın 79-cu dəqiqəsində "Qarabağ" klubunun kapitanı Maksim Medvedev onbirmetrlik cərimə zərbəsini dəqiq yerinə yetirərək komandasının üçüncü topunu vurub. Oyunda yekun hesabı 90+4-cü dəqiqədə Kadi Borges məlum edib - 4:1.

Beləliklə, "Qarabağ" ilk qələbəsini qazanaraq qrupda liderliyə yüksəlib.

## Dünya çempionatında 9 cüdoçumuz iştirak edəcək




Oktyabrın 6-dan 10-dək İtaliyanın Olbia şəhərində gənclər arasında cüdo üzrə dünya çempionatı keçiriləcək.

Yarışda ölkəmizi 9 idmançı təmsil edəcək. Belə ki, kişilər arasında keçiriləcək yarışlarda Turan Bayramov (60 kq), Kamran Süleymanov, Rəşad Quluzadə (66 kq), Nəriman Mirzəyev (73 kq) və Elcan Hacıyev (81 kq) iştirak edəcəklər.

Qadınların turnirində isə Aydan Vəliyeva (48 kq), Səbinə Əliyeva (52 kq), Rita Əliyeva (57) və Nərmin Əmirli (78 kq) mübarizə aparacaqlar.

## Azərbaycan güləşçisi dünya çempionatının favoritləri sırasında yer alıb



Oktyabrın 2-10-da Norveçin paytaxtı Osloda keçiriləcək güləş üzrə dünya çempionatında "Tokio-2020" Yay Olimpiya Oyunlarının 25 medalçısı iştirak edəcək.

Onların arasında Azərbaycanın yalnız bir təmsilçisi yer alıb. Bu, 82 kiloqram çəki dərəcəsində bürünc medal qazanmış yunan-Roma güləşçisi Rafiq Hüseynovdur. Həmin çəkidə digər medalçılar iştirak etməyəcəkləri üçün R.Hüseynov qarşılaşmalara favorit qismində çıxacaq.

Ümumilikdə sərbəst güləşdə 11 (2 qızıl, 3 gümüş və 6 bürünc), yunan-Roma güləşində 5 (1 qızıl, 1 gümüş və 3 bürünc), qadın güləşində 9 medalçı (1 qızıl, 3 gümüş və 5 bürünc) mundialda çıxış edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Pənahov Arif Vaqif oğluna məxsus № 015907 nömrəli "Müharibə Veteranı vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor vəzifəsini icra edən** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 639
Nüsxə 4019